


# "Xocalı. Son toy..."

## filminin təqdimatı

**"Global Media Group"un və "Report" informasiya agentliyinin ərsəyə gətirdiyi "Xocalı. Son toy" bədii-sənədli filmi 32 il öncə ermənilərin Xocalını atəşə tutması nəticəsində yarımçıq dayandırılan sonuncu toya həsr olunub. Qeyd edək ki, film Nizami Kino Mərkəzində təqdim edilib.**

Bir fotodan yola çıxılaraq ekranlaşdırılan bu əsər 1992-ci ildə yanvarın 18-də Xocalıda gerçəkləşən toyu, sonrasını və günümüzü tərənnüm edir. Sözügedən toyda çəkilən ağ-qara foto, yenidən zəfər bayrağı sancılmış azad Xocalıda həmin fotonun rənglənmiş variantı ilə canlandırılıb.

Filmin real kadrları Xocalıda, bədii hissəsi isə Ağsuda lentə alınıb.




İllər əvvəl "Vağzalı"sı yarımçıq kəsilən toyun bəyi Vasif Qafarov və gəlini Dürdanə Məmmədova və həmin toyda iştirak edən digər qonaqlar, qohumlar, həmçinin musiqiçi heyəti illər sonra yenidən doğma ata-baba yurdlarına gələrək toylarının davamını ediblər.



Qeyd edək ki, filmin layihə rəhbəri "Global Media Group" İdarə Heyətinin sədri Elnur Nazim oğlu Abdullayev, ideya və ssenari müəllifi Niyam Şirinov, quruluşçu rejissoru Yusif Ələkbərzadə, prodüseri isə Fuad Hüseynəliyevdir.

**Nurlan ABDALOV,**
**"Respublika".**